# Məktəblilər Heydər Əliyev irsini öyrənməkdə davam edirlər

Heydər Əliyev Mərkəzində rayonun ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri xalqımızın böyük şəxsiyyəti, ümummilli lider Heydər Əliyevin siyasi irsini, həyat və fəaliyyətinin ən mühüm məqamlarını öyrənməkdə davam edirlər. Yanvar ayının sonlarına yaxın keçirilən dərslərdə rayonun Yemişənli kənd tam orta məktəbindən 44 nəfər, Mirzəbəyli kənd tam orta məktəbindən 35 nəfər, Tüntül kənd tam orta məktəbindən 38 nəfər, Vəndam qəsəbə 1 saylı tam orta məktəbindən 40 nəfər şagird iştirak etmişdir.

«Ümummilli lider Heydər Əliyev Azərbaycan Respublikasının qurucusu və memarıdır» mövzusunda davam edən dərsləri növbəti dəfə təcrübəli müəllimlərdən Nuriyyə Məmmədova və Fəxrinisə Rəşidzadə, Azad Hacıyev tədris etmişlər. Dərslərdə Heydər Əliyevin Azərbaycana rəhbərliyinin hər iki dövründə və böyük sovet imperiyasının mərkəzi orqanlarında işlədiyi müddətlərdə siyasi fəaliyyətinin ən mühüm məqamları, ötən əsrin 90-cı illərində Azərbaycanda əldə olunmuş müstəqilliyin qorunub saxlanmasında mübarizlik əzmi və 20 Yanvar hadisələrinə münasibəti haqqında şagirdlərə geniş məlumat verilmişdir.

Heydər Əliyev Mərkəzinin əməkdaşları şagirdləri muzeyin ekspozisiya salonu ilə tanış etmiş, ulu öndərin Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda həyata keçirdiyi tədbirləri əks etdirən sənədlər və fotoşəkillər haqqında onlara geniş məlumat verilmişlər. Sonda məktəblilərə vidoçarxlar nümayiş etdirilmişdir.

Dərslər rayon təhsil şöbəsinin metodisti Tərbiyə İsayevanın rəhbərliyi altında tədris edilmişdir.

**Heydər Əliyev Mərkəzi.**

# Azərbaycan Gəncləri Günü qeyd olundu

Qəbələ rayon Gənclər və İdman idarəsi 2 fevral—Azərbaycan gəncləri günü münasibətilə Qəbələ Mədəniyyət Mərkəzində tədbir keçirmişdir.

Tədbir iştirakçıları öncə ümummilli lider Heydər Əliyevin abidəsi önünə tər qərənfillər düzmüşlər. Daha sonra tədbir Mədəniyyət Mərkəzinin konfrans zalında davam etmişdir. Tədbirdə rayonun bütün sahələrində çalışan, ictimai-siyasi həyatında fəal iştirak edən gənclər iştirak etmişdir.



Gənclər və İdman İdarəsinin rəisi Fəxri Soltanov giriş sözü ilə tədbiri açaraq bildirdi ki, müasir iqtisadi-siyasi, mədəni həyatımızda gənclər böyük çəkiyə malikdir, müstəqil dövlətimizin daha da çiçəklənməsi üçün sağlam, müstəqil düşüncəyə sahib olan, kreativ düşüncəli gənclər yetişməkdədir. Məruzəçi onu da bildirdi ki, gənclər arasında düzgün qurulmuş ideya-siyasi tərbiyə işinin nəticəsidir ki, bu gün Azərbaycan gəncliyi ulu öndər Heydər Əliyevin siyasətini ardıcıl şəkildə həyata keçirən, onun gerçəkləşdirməyə imkan tapmadığı layihələri tamamlayan Prezident İlham Əliyevin ətrafında birləşərək Heydər Əliyev ideyalarını qoruyur, inkişaf etdirir və dövlətimizin tərəqqisi naminə öz bacarıqlarını əsirgəmirlər. Fəxri Soltanov 2014-cü ildə görülən işlər və qarşıda duran məsələlər barədə məlumat verərək bayram münasibətilə gəncləri təbrik etdi.

Daha sonra bayram tədbirində Qəbələ rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanova çıxış edərək Azərbaycanda dövlət gənclər siyasətinin ümummilli lider Heydər Əliyev tərəfindən qoyulduğunu və bu günkü bayramın ulu öndər tərəfindən gənclərə ərmağan olduğunu bildirdi. Ə.Osmanova çıxışında möhtərəm Prezidentimizin Azərbaycan gəncliyinə göstərdiyi diqqət və qayğıdan, aparılan sistemli işin nəticəsi olaraq Azərbaycanda sağlam fikirli gəncliyin yaranmasından danışmış, sonda rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin təbrikini gənclərə çatdırmış və bütün gəncləri təbrik edərək onlara uğurlar arzulamışdır.

Tədbirdə YAP Qəbələ Rayon Gənclər Birliyinin sədri Ramil Qəribov, "Qəbələ Regional Gənclərin Resurs Mərkəzi" İctimai Birliyinin direktor müavini Anar Məhərrəmov, Dizaxlı kənd tam orta məktəbin ingilis dili müəllimi Aytən Vəliyeva, Uşaq-gənclər idman məktəbinin direktoru Ədalət Əliyev çıxış edərək ulu öndərin Azərbaycan gəncliyinə göstərdiyi diqqət və qayğıdan, Azərbaycanda gənclər siyasətinin bu gün cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyindən və çalışdıqları sahədə görülən işlərdən danışmışlar.

Ənənəvi olaraq tədbirin sonunda 2014-cü ildə müxtəlif sahələr üzrə nailiyyət qazanmış bir qrup fəal gənc fəxri fərman və xatirə hədiyyələri ilə mükafatlandırılmışdır.

**Məhəmmədəli SƏFƏRÇİNOV,**
**rayon gənclər və idman idarəsinin baş məsləhətçisi.**
**Foto S. Umuyevindir.**

# Əhalinin tibbi müayinəsinə başlanılmışdır

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına uyğun tib edilmiş qrafikə əsasən Qəbələ Müalicə Diaqnostika Mərkəzində və rayon mərkəzi



olaraq 2015-ci ilin fevral ayının 2-dən əhalinin tibbi müayinədən keçirilməsinə başlanılmışdır.

Bununla əlaqədar Qəbələ Rayon İcra Hakimiyyətində aidiyyəti qurumların nümayəndələrindən ibarət müvafiq komissiya yaradılmışdır.

Komissiya tərəfindən tərxəstəxanasında əhalinin artıq tibbi müayinədən keçirilməsinə başlanılmışdır.

Mayın 1-də başa çatdırılması nəzərdə tutulan tibbi müayinə ilə əlaqədar əhali arasında maarifləndirmə işləri genişləndirilmişdir.

**Foto S. Umuyevindir.**

# İsmayıl bəy Qutqaşınlı xatirələrdə

Bu günlərdə muzeydə həmyerlimiz, dahi şəxsiyyət, görkəmli ədib İsmayıl bəy Qutqaşınlının anma mərasimi qeyd olunmuşdur. Tədbiri giriş sözü ilə açan muzeyin direktoru, Əməkdar Mədəniyyət işçisi Xalis Məmmədov görkəmli ədib haqqında giriş sözü söyləmişdir.

Muzeyin böyük elmi içşisi Nəsibə Məmmədova İsmayıl bəy Qutqaşınlının həyat və yaradıcılığı haqqında ən dolğun tarixi məlumatlar, hərbi sahədə göstərdiyi fədakarlıqlar barədə məruzə etmişdir. Görkəmli ədibin daimi ekspozisiyamızda sərgilənən xüsusi guşəsi vardır.

Ədibin xatirəsi bir dəqiqəlik sükutla yad edilmiş və sonda xatirə şəkli çəkilmişdir.

# Gəncləri sağlam olan dövlət həmişə cavandır

Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzində 2 fevral—Gənclər gününə həsr olunmuş tədbir keçirildi. Tədbirdə Tədris Mərkəzinin pedaqoji kollektivi və şagirdləri iştirak edirdi. Tədris Mərkəzinin direktoru Eyvaz Kazımov çıxışında cənab İlham Əliyevin rəhbərliyilə gənclərə göstərilən diqqət və qayğı barədə geniş məlumat verdi. Tədbirdə Qəbələ Rayon Gənclər və İdman İdarəsinin aparıcı məsləhətçisi Mübariz Ağayev gəncləri təbrik edərək, onlara xoş arzularını bildirdi. O, qeyd etdi ki, ölkənin ictimai-siyasi, iqtisadi və digər sahələrində gənclərin fəallığı artıb. Gənclər siyasəti haqqında Azərbaycan Respublikasının qanunu, "Azərbaycan Gəncliyi 2011-2015-ci illər Dövlət Proqramı"nın imzalanması gənclərin problemlərinin aradan qaldırılması istiqamətində görülən işləri xeyli sürətləndirmişdir.

Mərkəzin ingilis dili müəllimi Gülər Kərimova Gənclər Gününün tarixi barədə toplantı iştirakçılarına məlumat verdi. Bildirdi ki, artıq 18 ildir ölkəmizdə 2 fevral Gənclər günü qeyd edilir. Bu bayram gənclərə ümummilli liderimiz Heydər Əliyev tərəfindən hədiyyədir, desək, yanılmarıq. Ümummilli liderimiz gəncliyi hər mənada gözəl, güclü görmək istəyir və bunun üçün əlindən gələni əsirgəmirdi.

Gənclik bir millətin yaşaması, inkişafı üçün təməl daşıdır. Bunun möhkəm olması isə yetişən gənc nəslin sağlam təfəkküründən, düşünmə qabiliyyəti və inadkarlığından asılıdır.

Bu gün istər təhsilimizdə, idman sahəsində, tibb, elm, mədəniyyət, istərsə də sosial-iqtisadi həyatda aktiv fəaliyyət göstərən, savadlı, yüksək intelektual dünyagörüşə, dərin biliyə malik gənclərimiz var. Gəncliyi və gəncləri sağlam olan dövlət həmişə cavandır.

Tədris Mərkəzinin şagirdlərindən Pərvin Mahmandarlı, Sahil İsrafilov, Ramilə Fazilli çıxış edərək, həmişə doğma vətənə layiqli övlad olacaqlarına, seçdikləri peşələrin sirrlərinə daha yaxından yiyələnəcəklərinə söz verdilər. Onlar öz bilik və bacarıqlarını daim dövlətimizin, xalqımızın çiçəklənməsinə sərf edəcəklərinə, ölkəmizdə gedən inkişaf, quruculuq və abadlıq işlərində fəal olacaqlarına bir daha hamını əmin etdilər.

**Səbinə CAHANGİRLİ,**
**tədris mərkəzinin istehsalat təlimi ustası.**